Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi yanında
Antiinhisar və İstehlak Bazarına
Nəzarət Dövlət Xidməti

# BMT-nin ƏRZAQ və KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ (FAO) 2023-cü ilin MAY AYINDA AÇIQLADIĞI ƏRZAQ QİYMƏTLƏRİNİN İNDEKSİ

# ÜMUMİ MƏLUMAT



- FAO Ərzaq Qiymətləri İndeksi (FFPI) 2023-ci ilin aprel ayında orta hesabla **127.2-ə** bərabər olmuşdur. Bununla da ərzaq qiymətləri indeksi mart ayı ilə müqayisədə **0.6% artıb** və ötən ilin müvafiq dövrü ilə müqayisədə isə **19.7% azalıb**.
- Son qiymət artmasının əsas səbəbləri:
  - ✓ Şəkər və ət məhsullarında olan qiymət artımlarıdır.




*Qeyd*: 2023-cü ilin yanvar - aprel ayları üzrə

# TAXIL MƏHSULLARI (DƏNLİ BİTKİLƏR)

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

- Taxıl məhsullarının Qiymət İndeksi aprel ayında orta hesabla **136.1 bənd** təşkil edib:
  - ✓ 2023-ci il mart ayına nisbətən **2.4 bənd (1.7%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **33.5 bənd (19.8%) azalıb.**
- Taxıl məhsullarının qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Avropada məhsuldarlığın yüksək olması fonunda buğda qiymətinin 2021-ci il iyul ayından bu yana ən aşağı səviyyəyə düşməsi;
  - ✓ Cənubi Amerikada mövsümi yığım fonunda qarğıdalı qiymətlərinin azalması;
  - ✓ Arpa və sorqonun qiymətlərinin azalması.



# BİTKİ YAĞLARI

- Bitki yağı Qiymətləri İndeksi aprel ayında orta hesabla **130.0 bənd** təşkil edib:
  - ✓ mart ayına nisbətən **1.8 bənd (1.3 %) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **107.5 bənd (45.3%) azalıb.**
- Bitki yağları qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Təklifin yüksək olması fonunda günəbaxan və kolza yağlarının qiymətinin azalması;
  - ✓ Soya qiymətinin azalması.



# SÜD MƏHSULLARI



- Süd məhsullarının Qiymətləri İndeksi aprel ayında orta hesabla **124.6 bənd** təşkil edib:
  - ✓ mart ayı ilə müqayisədə **2.2 bənd (1.7%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **22.1 bənd (15.1%) azalıb.**
- Süd məhsullarının qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Pendir və süd tozları qiymətlərinin azalması;
  - ✓ Qərbi Avropada mövsümi süd istehsalının artması.



# ƏT MƏHSULLARI

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

- Ət Qiyməti İndeksi aprel ayında orta hesabla **114.5 bənd** təşkil edib:
  - ✓ mart ayına nisbətən **1.5 bənd (1.3%) artıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **7.4 bənd (6.1%) azalıb.**
- Ət məhsulları üzrə qiymət indeksinin artmasının əsas səbəbləri:
  - ✓ ABŞ-da mal əti qiymətinin artması;
  - ✓ Asiyada yüksək tələbat fonunda quş əti qiymətinin artması;
  - ✓ Donuz əti qiymətinin artması.



# ŞƏKƏR



- Şəkər Qiymət İndeksi aprel ayında orta hesabla **149.4 bənd** təşkil edib:
  - mart ayına nisbətən **22.4 bənd (17.6 faiz) artıb;**
  - ötən ilin müvafiq dövrü ilə müqayisədə **27.9 bənd (23.0%) artıb.**

- Şəkər məhsulları üzrə qiymət indeksinin artmasının əsas səbəbləri:
  - Hindistan, Tayland və Çində şəkər istehsalının azalması fonunda tədarüklə bağlı yaranan çətinliklər;
  - Şəkər qamışı məhsuldarlığının gözləniləndən az olması;
  - Braziliya realının ABŞ dollarına qarşı güclənməsi nəticəsində şəkər qiymətinin artması;
  - Beynəlxalq neft qiymətlərinin yükselməsi.

